

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 183 (21.844)

28 sentyabr 2017-ci il,cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Belarus arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə – təhlükəsizlik, iqtisadiyyat, energetika, ticarət, hərbi-texniki əməkdaşlıq və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb. Yüksək səviyyəli qarşılıqlı səfərlərin, ölkələrimizin həyata keçirdiyi xeyli sayda birgə layihələrin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın əlaqələrimizin daha da genişləndirilməsində maraqlı olduğunu deyib. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycan ilə Belarusun beynəlxalq təşkilatlarda da bir-birini dəstəklədiyini vurğulayıb. Təhlükəsizlik sahəsinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, bununla bağlı müzakirə olunası və birgə fəaliyyət göstəriləsi bir çox məsələlər var.

Dövlət katibi Stanislav Zas ikitərəfli münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyini deyib. O, görülən işlərin nəticəsi olaraq Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsinin 10 faiz artdığını vurğulayıb. Belaruslu qonaq qeyd edib ki, ölkəsində Azərbaycan Prezidentinin səfərini səbirsizliklə gözləyirlər.

## Geoloji tədqiqat sahəsində birgə əməkdaşlığın perspektivləri müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsində Naxçıvan Dövlət Universitetinin kollektivi ilə birgə əməkdaşlığın perspektivləri istiqamətində iclas keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov çıxış edərək bildirib ki, muxtar respublikamızda təbii sərvətlərdən səmərəli istifadə iqtisadi siyasətin əsasını təşkil edir.

Qeyd edilib ki, bu istiqamətdə aparılan tədqiqatlarda Naxçıvan Dövlət Universitetinin tələbələri də yaxından iştirak etməli, təcrübi biliklərini artırmalı, muxtar respublikamızın mineral xammal ehtiyatlarının öyrənilməsinə öz töhfələrini verməlidirlər.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov vurğulayıb ki, Naxçıvanın geoloji mühiti regionun ən zəngin xammal ehtiyatlarına malikdir və bunun da böyük bir qismi öz tədqiqini gözləyir. Rektor idarənin ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə 2018-2019-cu tədris ilində Naxçıvan Dövlət Universitetində Geologiya ixtisasının yaradılmasının da nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Mayis Əliyev tədbir iştirakçılarına idarənin imkanları haqqında ətraflı məlumat verib.

Universitetin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev isə çıxışında muxtar respublikanın təbii sərvətlərinin və mövcud mineral xammal ehtiyatlarının tədqiq edilməsinin əhəmiyyətindən danışıb.

Sonra tədbir iştirakçıları idarənin nəzdində yaradılan Geologiya Muzeyinə ekskursiya ediblər. Bildirilib ki, muzeyin əsas fəaliyyət istiqaməti muxtar respublikanın mineral xammal bazasını səciyyələndirən süxur, mineral və filiz nümunələrinin ümumi nümayişə təqdim edilməsi, geoloji kəşfiyyat işlərinin nəticələrinin və elmi-geoloji nailiyyətlərin geniş miqyasda tanıdılması və təbliğindən ibarətdir. Muzeydə 3 bölmə – filiz ehtiyatları və qeyri-filiz ehtiyatları, o cümlədən geologiya tarixi bölmələri və paleontologiya yarımbölməsi fəaliyyət göstərir. Muzey fondunda 700 eksponat vardır. Burada həmçinin muxtar respublikanın geologiya və faydalı qazıntılar xəritələri də nümayiş etdirilir. Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin inzibati binası, Geologiya Muzeyi, Çöl tədqiqatları üçün kameral mərkəz və Geoloji Tədqiqatlar Mərkəzinin iş prinsipi ilə tanışlıq da maraq doğurub.

**Səadət ƏLİYEVA**

## Dizə kəndində kompleks quruculuq tədbirləri davam etdirilir

Muxtar respublikamızın sosial-iqtisadi inkişafının əsas göstəricilərindən biri də həyata keçirilən tikinti-quruculuq tədbirləridir. Belə tədbirlər çərçivəsində hər il onlarla yeni təhsil, səhiyyə, mədəniyyət müəssisələri istifadəyə verilir, şəhər və kəndlərimizin siması əsaslı şəkildə dəyişir. Əvvəlki illərdə olduğu kimi, cari ildə də kənd yaşayış məntəqələrində kompleks quruculuq işləri davam etdirilir. Bu tədbirlərdən birini də Culfa rayonunun Dizə kəndində yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası təşkil edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsindən aldığımız məlumata görə, kənddə inşa olunan yeni məktəb binası üçmərtəbəlidir. 216 şagird yerlik məktəb binasında hazırda son tamamlama işləri görülür. Təhsil ocağında işlər tam yekunlaşdıqdan sonra burada elektron lövhə və kompüter dəstləri ilə təchiz olunmuş sinif otaqları, laboratoriyalar, fənn kabinələri müəllim və şagirdlərin istifadəsinə veriləcək. Məktəb binasını istiliklə təmin etmək üçün burada fərdi qazanxana sistemi də quraşdırılıb.

İnşası başa çatdırılan kənd mərkəzinin binası isə ikimərtəbəlidir. Bu binada kənd icra nümayəndəliyi, bələdiyyə, kitabxana, klub, tibb məntəqəsi, Yeni Azərbaycan Partiyası Dizə kənd ərazi ilk təşkilatı, baytarlıq məntəqəsi, polis, poçt şöbələrinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılacaq.

Birmərtəbəli xidmət mərkəzi də istifadəyə hazır olan obyektlər sırasındadır. Bu mərkəz sakinlərin ərzaq və təsərrüfat mallarına olan tələbatlarının ödənilməsinə öz töhfəsini verəcək. Kənd və xidmət mərkəzlərində də son tamamlama işləri aparılır.

**Xəbərlər şöbəsi**

## AMEA Naxçıvan Bölməsində keçilən interaktiv dərs muxtar respublikanın 200 ümumtəhsil məktəbində izlənilib

*AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün yeni təhsil ilində ilk interaktiv açıq dərs keçilib.*

“Azərbaycan dilinin dünya dilləri içərisində yeri və tarixi inkişaf məsələləri” mövzusunda keçilən dərsdə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Onomastika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Firudin Rzayev dilimizin formalaşma tarixi barəsində şagirdlərə ətraflı məlumat verib.



Bildirilib ki, iltisaqi-aqlütinativ dillər qrupuna daxil olan Azərbaycan dilinin formalaşması miladdan əvvəlki minilliklərdən başlamaqla uzun bir tarixi proses keçib. Oğuz dilləri ailəsinə daxil olan Azərbaycan dilinin keçdiyi inkişaf mərhələlərindən danışan dilçi-alim qeyd edib ki, əsrlər, yəni müasir azərbaycanlılar miladdan öncə VI minilliyin ortalarından əlifbaya sahib olublar. Bu, yunan coğrafiyaçısı Strabonun yazılarında da yer alıb. Alim vurğulayıb ki, “Kitabi-Dədə Qorqud” dastanındakı boyların tarixi və dili, onun şeir üslubunda yazılışı ana dilimizin İslam dinindən xeyli əvvəlki dövrlərdən mövcud olduğunu bir daha təsdiq edir.

Xalqımızın ən yeni tarixindən bəhs edən Firudin Rzayev ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi milli dil siyasətindən, dilimizin dövlət dili statusu alması və beynəlxalq səviyyəyə yüksəlməsindən də danışıb. Qeyd edib ki, 1969-cu il Bakı Dövlət Universitetinin yaradılmasının 50 illik yubileyində Azərbaycan dilində çıxış edən ulu öndər dilimizin dövlət dili olması tələbi ilə ziyalılarımızın Siyasi Büro qarşısında məsələ qaldırmasına nail olub və 1977-ci ildə Azərbaycan dili dövlət dili kimi Konstitusiyamızın 73-cü maddəsində öz əksini tapıb.



Naxçıvan şəhər 1 nömrəli tam orta məktəb



Babək qəsəbə 1 nömrəli tam orta məktəb

Açıq dərsdə şagirdlərin diqqətinə çatdırılıb ki, bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ulu öndərin ***“Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”*** müdrik kəlamı dahi şəxsiyyətin ana dilimizə olan məhəbbətinin bariz nümunəsidir.

Bildirilib ki, 2001-ci il iyunun 18-də ümummilli lider “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman imzalayıb. Tarixi əhəmiyyət kəsb edən bu sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynayıb. Həmin fərmanda Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılması da nəzərdə tutulurdu. Belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı. 2001-ci il avqustun 9-da isə ulu öndər yeni fərman – “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” mühüm bir sənəd imzalayıb. Həmin fərmana əsasən hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Vurğulanıb ki, ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli sərəncamları da öz ictimai-tarixi əhəmiyyətinə görə yüksək qiymətləndirilir. Həmin fərmanlara uyğun olaraq 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı hazırlanıb və çap olunub. Bütün bunlar dövlət başçımızın milli və mənəvi dəyərlərimizə, elmin və mədəniyyətin inkişafına böyük diqqət yetirdiyini bir daha təsdiqlədi. “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 23 may tarixli Sərəncamı dövlətimizin və onun rəhbərinin ana dilimizin qorunmasına və inkişafına qayğısının ən bariz nümunəsidir.

Diqqətə çatdırılıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında da dövlət dil siyasəti uğurla həyata keçirilir. Naxçıvan şəhərində “Ana dili” abidəsi ucaldılıb. Son illər muxtar respublikada dərc olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, 3 cilddə “Naxçıvan folkloru antologiyası”, 3 cildlik “Naxçıvan tarixi” kitabı, xeyli sayda digər nəşrlər tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin də inkişafına mühüm töhfədir.

Açıq dərs Naxçıvan Muxtar Respublikasının 200 ümumtəhsil məktəbində izlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Qədim Naxçıvan torpağında yaşı ululardan ulu, igid, qəhrəman vətən övladlarının daşına, qayasına qanlarıyla tarix yazdıqları bir yurd yeri var. Xeyirin şərə qələbə çaldığı, düşmənin canına vəlvələ salan əzəmətiylə, qorxmaz insanlarıyla, yağının inadına onun gözü önündə salınan möhtəşəm tikililəri, bağ-bağatlarıyla, qoynunda vətən uğrunda canlarından keçmiş şəhidlərinə yer vermiş bu diyar Sədərəkdir. O Sədərək ki, Naxçıvanın ən çətin günlərdə düşmənin qarşısında səddə çevrilib. O yurd yeri ki, xalqımızın ən ali dəyərlərindən, qeyrət və şücaət daşlarından qurulan qalasının qapılarını düşmən üzünə bağlayıb, döyüşüb, mübarizə aparıb və qalib gəlib. İgid ərənlərimiz, fədailərimiz bu məkanın həm vətən torpaqlarının həm ilk, həm də son sərhədi olduğunu ən yüksək səslə hayqırıblar və sübuta yetiriblər ki, vətən sərhədi ana laylası, ana südü kimi müqəddəsdir, bu müqəddəsliyə heç kim xələl gətirə bilməz.*

*Bölgələrimiz bu gün*

# Sərhəd bölgəmizin sosial-iqtisadi sahədə uğurları artır



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2000-ci il 15 mart tarixli Sərəncamı rayonun, eləcə də Heydərabad qəsəbəsinin inkişafında mühüm rol oynayıb. Heydərabad qəsəbəsi dövlətimizin diqqət və qayğısı sayəsində inkişaf edir, çiçəklənir. Bu yurd yeri ulu öndərimizin əsasını qoyduğu, muxtar respublika rəhbərinin uğurla davam etdirdiyi quruculuq siyasətindən maksimum bəhrələnir.

Hazırda Sədərək rayonunda üç quruculuq ünvanında işlər davam etdirilir. Sərhəd-keçid məntəqəsi üçün yeni kompleks inşa olunur, Heydərabad qəsəbəsində yaşayış binası tikilir, rayon Mədəniyyət Evinin binasının yenidən qurulması isə yekunlaşdırılır. Qəsəbədə tikilməkdə olan yeni yaşayış binası Ermənistanla sərhəddən cəmi bir kilometr məsafədə yerləşir. Obyektdə qəlib-beton işləri aparılır. Zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olacaq binada 48 mənzil əhalinin istifadəsinə veriləcək. Rayonun Sədərək kəndindəki Mədəniyyət Evinin yenidən qurulması isə artıq başa çatıb. Binada son tamamlama işləri görülür. Elektrik və kommunikasiya xətləri çəkilib, pəncərələr salınıb, istilik sistemi quraşdırılıb. Hazırda binaya qaz xətti çəkilib, boya işləri görülüb. Binanın həyəti də abadlaşdırılır. Uşaq kitabxanası, tamaşa zalı və rayon Mədəniyyət Şöbəsinin fəaliyyət göstərəcəyi bina həm Sədərəkdə təhsil və mədəniyyətin inkişafına öz töhfəsini verəcək, həm də bu kəndin simasına yeni çalarlar qatacaq.

Rayonun sosial-iqtisadi inkişafına təkan verən sahələrdən biri də sənayedir. Bu sahənin inkişafına göstərilən dövlət dəstəyi nəticəsində təkcə bu ilin 8 ayında sərhəd rayonunda 2890,6 min manatlıq sənaye məhsulu istehsal olunub. Bu göstərici ötən ilin müvafiq dövrünün nəticələrindən yüksəkdir. Təbii ki, sənayenin inkişafı əhalinin məşğulluğuna da öz təsirini göstərib. Bəhs edilən dövrdə Sədərək rayonunda sənaye sahəsi üzrə 285 nəfər işçi çalışıb. Bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 275,7 manata çatıb.

Bu ilin ötən dövründə tikinti sahəsinə ayrılan investisiyaların həcmində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artım müşahidə olunur. Belə ki, bu ilin yanvar-avqust aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 14721,6 min manat və ya 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri bir il öncəyə nisbətən 1,9 faiz artaraq 13443 min manat təşkil edib. Bəhs edilən dövrdə rayonda tikinti sahəsində 240 nəfər işçi çalışıb. Tikinti sektorunda bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz artaraq 395,6 manat olub. Təbii ki, bu sektorda çalışanların əməkhaqlarındakı artım onların sosial durumuna da öz müsbət təsirini göstərir.

Muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Sədərək rayonunun təsərrüfatlarında da torpaq mülkiyyətçiləri tərəfindən aparılan əkin işləri davam etdirilir. Muxtar respublikamızda torpaq mülkiyyətçilərinə göstərilən dövlət qayğısı, onlar üçün hərtərəfli şəraitin yaradılması, texnika və gübrə ilə təchizatda tətbiq olunan güzəştlər sədərəkli torpaq mülkiyyətçiləri tərəfindən minnətdarlıqla qarşılanır, onları daha həvəslə işləməyə sövq edir. Bu il sentyabrın 1-nə olan məlumata görə, 2476 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 7 min 968 ton məhsul yığılmışdır. Məhsuldarlıq hər hektardan orta hesabla 32,2 sentner olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yığım sahəsi 24,9 faiz, yığılmış məhsul 24,4 faiz çoxdur. Bəhs edilən dövrdə 1706 hektar buğda əkini sahəsindən 5374 ton məhsul toplanıb. Orta hesabla hər hektardan məhsuldarlıq 31,5 sentner olub. 1 sentyabr 2016-cı illə müqayisədə yığım sahəsi 48,1 faiz, yığılmış məhsul 49 faiz, məhsuldarlıq 0,6 faiz artıb. Arpa əkilmiş sahələrin də məhsuldarlığı ötən illə müqayisədə yüksəkdir. Belə ki, 734 hektar arpa əkini sahəsindən 2485 ton arpa yığılıb. Orta hesabla hər hektardan məhsuldarlıq 33,9 sentner olub. 36 hektarlıq dənli-paxlalılar əkini sahəsindən 109 ton məhsul əldə edilib. Orta hesabla hər hektardan məhsuldarlıq 30,3 sentner təşkil edib. Ötən ilin 8 aylıq dövrü ilə müqayisədə yığım sahəsi 2,9 faiz, yığılmış məhsul 2,8 faiz artıb.

Rayonun torpaq mülkiyyətçiləri son illərdə qarğıdalı əkinlərinə də üstünlük verirlər. Bu da onunla əlaqədardır ki, qarğıdalı əkinləri bol qazanc vəd edir. Elə bunun nəticəsidir ki, 39 hektar dən üçün qarğıdalı əkilmiş sahənin 51,3 faizindən 112 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 56 sentner/hektar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə məhsuldarlıq 1,4 faiz çoxdur.

Bu gün Sədərək rayonunda əkinçilik sahəsində şaxələnmə müşahidə edilir. İndi rayonda aqrar sahənin bir qolunu da günəbaxan əkinləri təşkil edir. Bu da onunla əlaqədardır ki, günəbaxan çox əhəmiyyətli yağlı bitkidir. Rayonda 23 hektar dən üçün günəbaxan əkilmiş sahənin 95,7 faizindən 49 ton məhsul yığılıb. Hər hektardan məhsuldarlıq orta hesabla 22,3 sentner olub. 1 sentyabr 2016-cı illə müqayisədə yığılmış məhsul 2,1 faiz, məhsuldarlıq 2,3 faiz çoxdur.

Kartofçuluq Sədərək rayonunda kənd təsərrüfatının aparıcı sahələrindən birini təşkil edir. Bu vacib sahənin intensiv amillər hesabına inkişaf etdirilməsi ikinci çörək hesab edilən kartofun bolluğuna gətirib çıxarır. Odur ki, son bir neçə il ərzində kartof istehsalı artan templə inkişaf etdirilib. Bu ilin 8 ayında rayonda 102 hektar kartof əkilmiş sahənin 96,1 faizindən 1864 ton kartof yığılıb. Sədərəklilər gələn il kartof əkini sahələrini daha da genişləndirməyi planlaşdırırlar.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan vəzifələrin Sədərək rayonunda da uğurla yerinə yetirilməsinə xüsusi diqqət göstərilir. Bu ilin 8 ayında 416 hektar tərəvəz bitkiləri əkilmiş sahənin 96,4 faizindən 4805 ton tərəvəz məhsulları yığılıb, hər hektarın məhsuldarlığı orta hesabla 119,8 sentner olub. 189 hektar bostan bitkiləri əkilmiş sahənin 98,4 faizindən 2137 ton bostan məhsulları toplanıb. Meyvəçilik sahəsində də ilbəil artım müşahidə olunur. Bu ilin ötən dövrü ərzində meyvə bağlarından 496 ton məhsul yığılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 15 dekabr tarixli Sərəncamında üzümçülüyün əsas istiqamətləri, müasir vəziyyəti, inkişafının məqsəd və vəzifələri, maliyyə mənbələri və gözlənilən nəticələr müəyyənləşdirilmişdir. Üzümçülüyün yenidən genişləndirilməsi muxtar respublika iqtisadiyyatının daha da inkişaf etdirilməsinə, əhalinin, xüsusilə kənd təsərrüfatı və emal sənayesində gəlirlərin artırılmasına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Sədərək rayonunda da bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Bu il barverən üzüm bağlarından 526 ton məhsul yığılıb. Məhsuldarlığın gələn il daha yüksək olacağı gözlənilir. Artıq Sədərəkdə yeni üzüm bağlarının salınması üçün hazırlıqlara başlanılıb, bunun üçün ötən il qələm üsulu ilə artırılan tinglərdən istifadə ediləcəkdir.

Bu gün Sədərək rayonunun əkin sahələrində qızğın iş gedir. Kənd əməkçiləri müasir texnikaların köməyi ilə şum qaldırılmasına başlamışlar. İşlərin sürətli gedişatı belə deməyə əsas verir ki, gələn ilin bol məhsulunun təməli elə bu gündən qoyulur. Statistik göstəricilərə nəzər salsaq, görərik ki, cari ilin 1 sentyabrına 207 hektar sahədə payız əkini üçün şum qaldırılıb.

Rayonda heyvandarlığın da inkişafına xüsusi diqqət yetirilir. Hazırda da burada 2230 baş iribuynuzlu, 17 min 300 baş xırdabuynuzlu heyvan bəslənilir. Uzun illərdir, heyvandarlıqla məşğul olan Rəşid Əsgərov dedi ki, rayonda baytarlıq xidmətinin yüksək səviyyədə həyata keçirilməsi, heyvandarlar üçün lazımi şəraitin yaradılması bu sahədə daha yaxşı nailiyyətlər qazanılmasına imkan verir. Vaxtilə heyvandarlığa o qədər də maraq göstərməyən kənd sakinləri indi daha həvəslə çalışırlar. Çünki istehsalçıların bazara çıxış imkanları da artırılıb.

Bu ilin 8 ayında rayonda diri çəkidə 257 ton ət, 1478 ton süd, 1145 min ədəd yumurta, 16,7 ton yun istehsal edilib. 2016-cı ilin yanvar-avqust ayları ilə müqayisədə ət və yun istehsalı hər iki halda 1,2 faiz, süd istehsalı 8,8 faiz, yumurta istehsalı 11,4 faiz artıb. Ümumiyyətlə, rayonda kənd təsərrüfatı sektorunda 11698,3 min manatlıq məhsul istehsal edilib. Bu da 2016-cı ilin yanvar-avqust ayları ilə müqayisədə 3,3 faiz çoxdur.

İllər uzunu əhalinin qarşılaşdığı çətinliklərdən olan suvarma suyuna olan tələbatın dolğun ödənilməsi istiqamətində görülən işlər öz bəhrəsini verir, böyük vəsaitlər hesabına salınan kanallar, tikilən nasos stansiyaları, qazılan artezian quyuları vaxtilə susuz çöllərə həyat verir, insanları əkib-becərməyə, vətən torpağının bu parçasında güllük-gülüstanlıq yaratmağa ruhlandırır.

Bəhs edilən dövrdə Sədərək rayonunda əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsi 1,1 faiz artaraq 27067 min manata çatmışdır. Bunun 4 faizini və yaxud 1081,2 min manatını iaşə əmtəə dövriyyəsi təşkil edib. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 1,4 faiz yüksələrək 2996,8 min manat təşkil edib. Pullu xidmətlərin 20,3 faizi və yaxud 608,5 min manatı məişət xidmətlərinin payına düşür ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. 2017-ci ilin yanvar-iyul aylarında Sədərək rayonunda muzdla işləyənlərin orta aylıq əməkhaqqı 448,8 manat təşkil edib. Ən yüksək orta aylıq əməkhaqqı kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, topdan və pərakəndə ticarət, dövlət idarəetməsi və icbari sosial təminat, yaşayışın təşkili və ictimai iaşə sahələrində çalışan işçilərdə qeydə alınıb.

Rayonda təhsil, səhiyyə, nəqliyyat, informasiya, rabitə, infrastruktur quruculuğu, elektrik, su və mavi yanacaqla təminat və digər sahələrdə əldə olunan nəticələr davamlı sosial-iqtisadi inkişafdan xəbər verir. Əminliklə demək olar ki, 28 avqust 1990-cı ildə Şərur rayonunun tərkibindən ayrılaraq rayon statusu alan bu sərhəd bölgəmiz qısa zamanda böyük bir inkişaf yolu keçib. Təbii ki, bu inkişafın təməlində bölgəyə göstərilən hərtərəfli dövlət qayğısı dayanır.

**Sərxan İSMAYILOV**
***"Oğuz yurdu" qəzetinin redaktoru***

## Baytarlıq xidməti yüksək səviyyədə təşkil edilib

Ordubad rayonunda baytarlıq xidmətinin fəaliyyətini gücləndirmək və nəzarət tədbirlərini yaxşılaşdırmaq məqsədilə istifadəyə verilən kənd mərkəzlərinin hər birində baytarlıq məntəqələri üçün lazımi avadanlıqlarla təmin edilmiş iş yerləri ayrılıb. Ümumiyyətlə, Ordubad Rayon Baytarlıq İdarəsi rayon əhalisinə 2 laboratoriya və 30 baytarlıq məntəqəsi vasitəsilə xidmət göstərir.

Baytarlıq xidmətinin vaxtında və mütəşəkkil təşkili məqsədilə rayona lazımi dərman preparatları gətirilir, iri və xırdabuynuzlu heyvanlar, həmçinin arılar və quşlar arasında müxtəlif xəstəliklərə qarşı peyvəndlər vaxtında aparılır. Ordubad Rayon Baytarlıq İdarəsinin rəisi Pamir Hüseynov bizimlə söhbətində bildirdi ki, bu il iyulun 5-də Naxçıvan Muxtar Respublikası Baytarlıq Xidmətində 2016-2017-ci illərdə baytarlıq xidməti sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən səyyar müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri xidmət əməkdaşları qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Heyvandarlığın inkişafında müsbət dinamikanın qorunub saxlanması, məhsuldarlığın artırılması və müxtəlif xəstəliklərə qarşı mübarizə tədbirlərinin vaxtında aparılması üçün Baytarlıq Xidməti fəaliyyətini daha da gücləndirməlidir. Xidmət yaradılmış şəraitdən düzgün istifadə edərək epizootik sabitliyi qoruyub saxlamalı, heyvanlar arasında peyvəndləmə, diaqnostik müayinə və digər tədbirlərin səmərəli təşkilinə nail olmalı, istifadə olunan dərmanların keyfiyyətinə və saxlanılma şəraitinə ciddi nəzarət edilməlidir. Naxçıvan şəhərində və rayon mərkəzlərində heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılması davam etdirilməlidir".***

Qarşıya qoyulan bu vəzifələrin yüksək səviyyədə icrası üçün Ordubad Rayon Baytarlıq İdarəsi cari ilin ötən ayları ərzində bir sıra profilaktik tədbirlər yerinə yetirmişdir. Belə ki, diaqnostik müayinələr üzrə 5420 baş iribuynuzlu mal-qaradan, 5570 baş xırdabuynuzludan bruselyoz xəstəliyinin müəyyənləşdirilməsi üçün qan nümunələri götürülüb, epididimit üzrə 1810 baş xırdabuynuzluda, tuberkulizasiya üzrə 393 baş iribuynuzlu mal-qara üzərində müayinələr aparılıb. Həmçinin 7889 baş iribuynuzlu, 54180 baş xırdabuynuzluda qarayara xəstəliyinə qarşı profilaktik peyvəndləmələr aparılıb.

İdarə rəisi onu da bildirdi ki, bu ilin ötən aylarında arı xəstəliklərinə və quşlar arasında mövcud olan xəstəliklərə qarşı da profilaktik olaraq tədbirlər görülüb, müxtəlif xəstəliklərə qarşı da lazımi müayinə işi aparılıb.

Ümumiyyətlə, 2017-ci ilin ötən ayları ərzində 2946 baş iribuynuzlu mal-qara, 2484 baş xırdabuynuzlu müalicə olunub, 4906 baş iribuynuzlu mal-qarada, 11740 baş xırdabuynuzluda və 17383 baş quş üzərində dehelmentizasiya işi aparılmışdır. Bu müddətdə 18315 kvadratmetr sahəni əhatə edən 111 obyektdə dezinfeksiya işləri də yerinə yetirilib.

Pamir Hüseynov söhbətinin sonunda onu da vurğuladı ki, baytarlıq xidməti sahəsində qazanılan uğurlar son illər dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Bu il iyul ayının 5-də Naxçıvan Muxtar Respublikası Baytarlıq Xidmətində keçirilən səyyar müşavirədə Ordubad Rayon Baytarlıq İdarəsi Ali Məclisin Sədri tərəfindən qiymətli hədiyyə ilə mükafatlandırılıb, 14 sentyabr 2017-ci il tarixində isə muxtar respublika rəhbəri tərəfindən idarəyə 1 ədəd "NAZ-Lifan" markalı avtomobil təqdim olunub.

**Abbas SEYİD**

***Muxtar respublikamızda peşə və orta ixtisas təhsilinin inkişafı prioritet vəzifələr sırasındadır. Son illərdə belə təhsil müəssisələri üçün yeni binaların inşa olunması, onların maddi-texniki bazalarının genişləndirilməsi, yeni ixtisasların açılması əmək bazarının tələbatını ödəmək baxımından mühüm əhəmiyyət daşıyır, həmçinin gənclərin müxtəlif peşələrə yiyələnmələrinə, məşğulluğun təmin olunmasına şərait yaradır. Belə təhsil müəssisələrindən biri də Naxçıvan Dövlət Texniki Kollecidir. Məlumat üçün bildirək ki, haqqında bəhs edəcəyimiz kollec 1925-1926-cı tədris ilində Naxçıvan Kənd Təsərrüfatı Texnikumu kimi yaradılıb.***

*Təhsil millətin gələcəyidir*

# İxtisaslı kadrların yetişdirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə olunur



Həmin tədris ilində texnikuma 2 ixtisas üzrə 41 nəfər tələbə qəbul edilib. 2002-ci ildən təhsil müəssisəsinin profili genişləndirilib, texnikum Naxçıvan Dövlət Texniki Kolleci adlandırılıb. Bu illər ərzində orta ixtisas təhsili müəssisəsini yüzlərlə məzun bitirib, onlar xalq təsərrüfatının müxtəlif sahələrində işlə təmin olunublar. Digər tədris müəssisələri kimi, son illərdə bu kollecin də hərtərəfli fəaliyyət göstərməsi üçün bir sıra işlər görülüb, kollec üçün ayrılmış yeni bina yenidənqurmadan sonra 10 oktyabr 2016-cı ildə müəllim və tələbələrin istifadəsinə verilib. Bu, kollecin pedaqoji kollektivinin öz işinə məsuliyyətini daha da artırıb, müəllimləri ixtisaslı kadr hazırlığında qarşıya qoyulmuş vəzifələri yüksək səviyyədə yerinə yetirməyə sövq edib.

Kollecin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov da söhbətə kollecə göstərilən qayğı ilə başladı. Öyrəndik ki, yeni istifadəyə verilən 5 mərtəbəli müasirtipli, 784 yerlik təhsil ocağında 26 auditoriya, 14 elektron lövhəli sinif, hərbi kabinə, kimya-biologiya, fizika və baytarlıq laboratoriyaları, internetə qoşulmuş 66 kompüterlə təchiz olunmuş 3 kompüter otağı, müəllimlər otağı, bir elektron lövhəli monitor, kitabxana, 10 fənn kabinəsi, 120 yerlik iclas zalı və bufet, fondunda 3086 bədii ədəbiyyat və dərslik olan kitabxana müəllim və tələbələrin istifadəsinə verilib. Ötən dövr ərzində kitabların sayı 5340-a çatdırılıb. Kollecdə yaradılmış Heydər Əliyev lektoriyasında ümummilli liderin həyat və fəaliyyəti tələbələrə öyrədilir, burada ulu öndərə həsr olunmuş bir-birindən maraqlı tədbirlər həyata keçirilir. Belə tədbirlərdə tələbələrin fəallığı təmin olunur.

Ötən tədris ilində kollecdə 6 fənbirləşmə komissiyası, 10 fənn kabinəsi və 3 laboratoriya fəaliyyət göstərib, yol hərəkətinin təşkili, mühasibat uçotu, baytarlıq təbabəti, bank işi, nəqliyyatda daşımaların təşkili, rabitə qovşaqları və kommunikasiya sistemləri (2016-cı ildə açılıb) ixtisasları üzrə kadr hazırlığı aparılıb. Tədris ilində əyani şöbədə 6 ixtisas üzrə 19 qrupda 372 nəfər, bir ixtisas üzrə qiyabi şöbədə isə 4 qrupda 62 nəfər olmaqla, 434 tələbə təhsil alıb.

Kollecdə dərslərin laboratoriya şəraitində aparılması təmin edilib. Kadrların mükəmməl biliklərə yiyələnmələri üçün müasir təlim üsullarından istifadə diqqətdə saxlanılıb. Açıq dərslərin keçilməsinə, həmin dərslərin təhlilinə ciddi önəm verilib. Belə dərslərdə elektron vəsaitlərdən, yeni ədəbiyyatlardan, internet məlumatlarından istifadə edilib. Buraxılmış nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb. Geridə qalan tələbələr əlavə məşğələlərə cəlb olunublar. Çəkilən zəhmət öz bəhrəsini verməkdədir.

Direktorun sözlərinə görə, 2016-2017-ci tədris ilində əyani şöbədə payız və yaz imtahan sessiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Orta ixtisas müəssisələrində kredit sistemilə tədrisin təşkili” qaydalarına uyğun keçirilib. Kollec üzrə mənimsəmə 81 faiz, keyfiyyət 34 faiz təşkil edib, imtahan sessiyasının nəticələrinə görə 91 tələbə əlaçı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncam əsasında tədris ocağında bir sıra işlər görülüb. Belə ki, ixtisaslar üzrə treninqlər, buraxılış qruplarının istehsalat təcrübələri aidiyyəti təşkilatlarda keçirilib. Təcrübələr bitdikdən sonra 5 ixtisas üzrə 6 qrupda 120 məzun dövlət imtahanına buraxılıb və onlardan 8 nəfəri fərqlənmə, 112 nəfəri isə adi diploma layiq görülüb.

Yol hərəkətinin təşkili qrupu üzrə əyani şöbənin 19 tələbəsi Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində sürmə təlimi keçməklə “B” və “C” kateqoriyaları üzrə şəhadətnamə alıb. Kollecdə 2016-2017-ci tədris ilində qiyabi şöbədə 1 ixtisas üzrə 4 qrupda 62 nəfər qış və yaz imtahan sessiyasına buraxılıb. Bu şöbədə də qazanılan nəticələr uğurlu olub.

Texniki Kollecin yeni binasının açılış mərasimində Ali Məclis Sədrinin ***“İyirmi birinci əsr texnologiya əsridir. Texniki yeniliklər olmadan hər hansı bir sahənin inkişafını təsəvvür etmək mümkün deyil. Bu da özlüyündə texniki sahələr üzrə ixtisaslı kadrların hazırlanmasını zərurətə çevirir. Təcrübə göstərir ki, texniki təhsil bütövlükdə təhsil sisteminin aparıcı istiqaməti olmaqla yanaşı, həm də iqtisadi inkişafın təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Bu gün muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırmışdır... Naxçıvan Dövlət Texniki Kollecində yaradılan yeni infrastruktur və maddi-texniki bazadan, informasiya texnologiyalarından səmərəli istifadə olunmalı, texniki təhsilin məzmunu daha da təkmilləşdirilməlidir. Tədris prosesində təcrübi məşğələlərə, yeni təlim üsullarına üstünlük verilməlidir. Tədris proqramına uyğun elektron dərs vəsaitləri hazırlanmalı, pedaqoji heyətin səviyyəsi yüksəldilməli, müəllimlər yeni təlim üsullarını mənimsəməli, məsuliyyətlə və tələbkarlıqla çalışmalıdırlar”*** tövsiyəsinə əməli işlə cavab verməyə çalışan kollecdə hər bir ixtisas üzrə kredit sistemi ilə 144 dövlət proqramı hazırlanıb, çapa verilib. Kollecin tarixində ilk dəfə olaraq elmi məqalələrdən ibarət jurnal nəşrə hazırlanıb.

Təhsil ocağında Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublika İdarəsinin dəstəyi, “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə “Müasir bank xidmətlərinin tətbiqi və marketinqi” mövzusunda treninq keçirilib. Kollecdə tələbələrin istedad və bacarıqlarının formalaşdırılması və düzgün istiqamətləndirilməsi üçün müxtəlif tədbirlərin təşkili bir ənənə şəklini alıb. Bu həm də təhsilin səviyyəsinin yüksəldilməsinə öz təsirini göstərir. Ötən dərs ilində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş “Heydər Əliyev kuboku” uğrunda yarışda kollecin komandası birinci, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Rəssamlar Birliyinin birgə təşkil etdikləri “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda IV muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsində isə kollecin tələbələri I,II,III, kollecin qızlardan ibarət yüngül atletika komandası 16-18 fevral 2017-ci il tarixlərdə Bakı şəhəri Respublika Olimpiya Mərkəzində keçirilən Azərbaycan birinciliyində iştirak edərək I yerə layiq görülüblər.

Asəf Ruşanov bildirdi ki, tələbələrin təhsili ilə 4 nəfəri fəlsəfə doktoru olmaqla, 44 nəfər müəllim məşğul olur. Səmərəli fəaliyyətinə görə kollecin 2 müəllimi “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adına layiq görülüb, 1 nəfər müəllim “Tərəqqi” medalı ilə təltif edilib. Kollecin müəllimləri təhsil aldıqları orta məktəblərdə nümunəvi dərslər keçiblər.

Yaradılan şərait hesabına qazanılan uğurlar isə adıçəkilən təhsil ocağında oxumaq istəyən gənclərin ildən-ilə sayının artmasına səbəb olur. Bu baxımdan cari ildə də kollecə qəbulun nəticələri ürəkaçandır. Bu tədris ilindən elektrik təchizatı ixtisası üzrə kadr hazırlığına da başlanılıb.

2017-2018-ci tədris ilində kollecə tam orta təhsil bazasından qiyabi şöbəyə – yol hərəkətinin təşkili ixtisasına 15 nəfər, əyani şöbənin 7 ixtisasına ümumi orta təhsil bazasından 119 nəfər qəbul olunub. Yeni tədris ili üçün müəllimlərin, fənbirləşmə sədrlərinin, qrup rəhbərlərinin, kabinə müdirlərinin iş planları işlənib hazırlanıb. Kollecə yeni təyin olunan gənc müəllimlər təcrübəli müəllimlərə təhkim edilib, onların qarşılıqlı dərsdinləmədə, açıq dərslərdə iştirakları nəzərdə tutulub. İlk günlərdən tədris ocağında pedaqoji nizam-intizam qaydalarına nəzarət önə çəkilib. Kollecdə həm müəllim, həm də tələbələr üçün vahid geyim qaydası tətbiq olunub. Müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsinə diqqət artırılıb.

Yeni dərs ilinə səylə başlayan kollektiv ötən il qazandığı uğurları son həddi hesab etmir. Yaradılan şəraitdən səmərəli istifadə edərək cari dərs ilində belə uğurları daha da artırmağa çalışır. Bu da belə deməyə imkan verir ki, ixtisaslı kadr hazırlığında kollec qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək.

**Muxtar MƏMMƏDOV**

*Naxçıvan: İslam mədəniyyətinin paytaxtı*

# Mənəvi dəyərlərimizi yaşadan Naxçıvan İslam həmrəyliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək

***VII əsrdə Azərbaycanda İslam dininin qəbul edilməsi xalqın müqəddəratında ciddi dönüşün başlanğıcı olub. Zaman keçdikcə türk və qeyri-türk etnoslar arasında yaranan dini birlik bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə, qohumluq əlaqələrinin genişlənməsinə, qaynayıb-qarışma prosesinin dərinləşməsinə şərait yaradıb. İslamı qəbul etmiş etnoslar Cənubi Qafqazı bütünlüklə xristianlığın təsir dairəsinə salmağa çalışan Bizans imperiyasına qarşı türk-islam bayrağı altında birləşib.***



Əsrlərdən bəri ölkəmiz müsəlman intibahının bərqərar olmasında mühüm rol oynayıb. Sovet dövründə Azərbaycanda dinlə bağlı sərt qadağaların mövcud olmasına baxmayaraq, ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda İslam mədəniyyəti ənənələri uzun illər qorunub saxlanıb və bu gün də həmin dəyərlər yaşadılaraq gələcək nəsillərə çatdırılır.

Azərbaycanın İslam aləmində qazandığı nüfuz müstəqillik illərində – 2009-cu ildə Bakı şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunması ilə öz ifadəsini bir daha tapıb. Bu çərçivədə həyata keçirilən çoxsaylı tədbirlər ölkəmizin islami dəyərlərə bağlı olduğunu, tarixboyu bu dəyərləri qoruyub saxladığını və ona ehtiramla yanaşdığını bir daha təsdiq edib. Bütün bunlar respublikamızın tarixində ən böyük mədəniyyət hadisəsi olmaqla, Azərbaycanın İslam dünyasına inteqrasiyası sahəsində yeni dövrün başlanğıcını qoyub. Qürur duyuruq ki, 2018-ci ildə bu missiyanı Naxçıvan şəhəri yerinə yetirəcək.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2016-cı il 2 iyun tarixli Sərəncama əsasən Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Komitənin ötən il noyabrın 15-də keçirilən ilk iclasında hazırlıq işləri ilə bağlı məsələlər müzakirə olunub, görüləcək işlərin istiqaməti müəyyənləşdirilib.

Bununla bağlı Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin rəisi Vüqar Babayevlə həmsöhbət olduq. O bildirdi ki, bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri 2017-ci il yanvarın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı–2018” loqotipinin hazırlanması haqqında” imzaladığı Sərəncamdır. Sərəncama əsasən loqotipin hazırlanması məqsədilə müsabiqə elan edilib. Müsabiqənin nəticələrinə görə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Tapdıq Həmzəyevin hazırladığı eskiz “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı–2018”in loqotipi kimi qəbul edilib. Digər bir məsələ rəsmi internet səhifəsinin yaradılmasıdır ki, hazırda bu sahədə iş aparılır. Naxçıvanın İslam mədəniyyətinin paytaxtı olmasını əks etdirən videoçarxlar, suvenirlər, zərf və poçt markaları hazırlanır. Muxtar respublikada mövcud olan türk-islam mədəniyyət nümunələrinin, dini abidələrin tanıdılması ilə bağlı onlardan bəzilərinin İSESCO-nun siyahısına salınması istiqamətində işlərin aparılması, qədim diyarın dini abidələri, məscid və ziyarətgahları haqqında kitabların nəşri, milli və mənəvi dəyərlərimizə həsr olunmuş sənədli və televiziya filmlərinin hazırlanması da diqqət mərkəzində saxlanılıb. Təşkilat Komitəsi elmi-kütləvi tədbirlərin təşkilinə ciddi önəm verir. Naxçıvanda “İslam filmləri həftəsi”nin keçirilməsi, İslam ölkələrinin folklor və rəqs qruplarının iştirakı ilə festivalların, müxtəlif idman yarışlarının təşkili üçün hazırlıq işləri başlanılıb.

Vüqar Babayevin sözlərinə görə, Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan Naxçıvanın yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olub. Hazırda dünyanın bəzi ölkələrində müharibələr gedir, məscidlər və dini abidələr dağıdılır. Lakin Azərbaycanda sabitlikdir, bütün sahələr inkişaf etdirilir, məscidlər, dini ziyarətgahlarımız, milli və mənəvi dəyərlərimiz qorunub yaşadılır. Bəşər mədəniyyətinin əvəzsiz inciləri olan Əlincəqala, Möminə xatın, Gülüstan türbələri, Xanəgah Abidə Kompleksi kimi onlarca abidəyə həyat verilib. Ən böyük dini inanc və turizm obyekti olan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, imamzadələr, məscidlər bərpa olunub.

Bu gün muxtar respublikada 209 məscid fəaliyyət göstərir. Bu məscidlərdən 72-si yeni tikilib, 95 məscid və 23 pir isə yenidən qurulub və ya bərpa olunub. Nuh Peyğəmbərin məzarüstü türbəsinin yaxınlığında inşa olunan məscid kompleksi isə muxtar respublikanın ən böyük və memarlıq quruluşu ilə fərqlənən ibadət ocağı olacaqdır.

Bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin məzarüstü türbəsinin burada olması, “Qurani-Kərim”də adıçəkilən Əshabi-Kəhf ziyarətgahı, imam övladlarının dəfn olunduğu imamzadələr, pirlər, məscidlər Naxçıvanda islami dəyərlərin illərlə qorunaraq günümüzədək gəlib çatmasından xəbər verir. Xalqımız İslam dinini qəbul etdikdən sonra bütün bölgələrimizdə, o cümlədən Naxçıvanda abidələrin əksəriyyətində “Qurani- Kərim”dən ayələr əks edilib. Ümumilikdə, bölgədə İslam mədəniyyətinin izlərini yaşadan abidələr, həmçinin mədrəsələr, təkyələr, xanəgahlar, qədim tarixə malik məscidlər çoxluq təşkil edir ki, bu da Naxçıvanı İslam dünyasının müqəddəs və tarixi məkanı kimi səciyyələndirir.

İdarə rəisinin sözlərinə görə, milli ornamentləri və yüksək memarlıq xüsusiyyətləri ilə Naxçıvan abidələri bu gün nəinki İslam ölkələrindən, dünyanın dörd bir yanından gələn turistləri heyran etməkdədir. 1200-dən artıq tarixi abidəyə malik olan Naxçıvan özündə dünya əhəmiyyətli 57 abidəni hifz etməklə bəşər mədəniyyətini zənginləşdirir. İslam Konfransı Təşkilatının tərkibinə daxil olan 52 ölkənin nümayəndələrinin muxtar respublikaya gəlməsi burada formalaşan böyük mədəniyyətin, onun zəngin turizm potensialının təkcə İslam ölkələrində deyil, həm də dünyada təbliği baxımından əvəzsiz imkanlar yaradacaqdır. İslam mədəniyyətinin paytaxtı kimi 2018-ci il Naxçıvanın tarixinə şərəf və qürurla yazılacaq bir il olacaq.

İslam dini humanistliyi, dincliyi, qardaşlığı, sülhü, Naxçıvan isə bu dəyərləri aşılayan zəngin mədəni irsi ilə qapılarını İslam dünyasına açacaq. O qapıdan keçən hər kəs Naxçıvanın qazandığı nailiyyətlərin, tarixi abidələrinə, dini-mənəvi dəyərlərinə ehtiramın, mədəni həyatındakı yeniliklərin bilavasitə şahidi olacaq. İslam mədəniyyətinin paytaxtı olacaq Naxçıvan İslam həmrəyliyinin möhkəmləndirilməsinə də öz töhfəsini verəcək.

**Gülcamal TAHİROVA**

*Naxçıvanın milli geyimləri xalqımızın mədəniyyət tarixini öyrənmək üçün qiymətli mənbələrdəndir. Xalq geyimləri daha çox bu bölgənin milli xüsusiyyətlərini özündə əks etdirir. Çünki xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xüsusiyyətlərinin bir qismi öz əksini Naxçıvanın milli geyimlərində tapır. Qədim diyarda milli geyimlərin inkişaf tarixi haqqında bölgənin ayrı-ayrı yerlərindən tapılmış arxeoloji materiallar və müxtəlif başqa mənbələr əsasında müəyyən fikir demək mümkündür.*

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Naxçıvanın milli geyimləri: qədimdən günümüzə




Azərbaycan geyim mədəniyyətinə aid ən qədim nümunə Qobustan qayalıqlarından birində təsvir edilmişdir. Aparılan arxeoloji qazıntılar zamanı əldə olunmuş eradan əvvəl II minilliyə aid gildən kiçik heykəllərdə, Qızılburun küpəsinin və sair üzərində Naxçıvan geyimlərinin ən qədim örnəklərinə rast gəlirik. Küpədə üçbucaqların arasında boş qalmış sahənin bir hissəsinə həndəsi motivli kompozisiyada rəqs edən iki insan fiquru çəkilmişdir. İnsan rəsmləri olduqca sxematikdir. Onların biri qara rənglə, digəri isə qırmızı rənglə çəkilmişdir. Bu tapıntı sübut edir ki, Naxçıvanın geyim mədəniyyəti də qədim dövrlərdə yaranıb formalaşmışdır.

Naxçıvanın milli geyimlərinin əsas yardımçı elementlərindən biri də kəmərlərdir. Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyasında sərgilənən, metaldan olan qadın kəməri orta əsrlərə aid bel bağlarının ən zəngin örnəklərindən biridir. Muzeyin ekspozisiyasında orta əsrlərə aid milli qadın və kişi kəmərləri çoxluq təşkil edir. Naxçıvanda hələ ki qədim dövrə aid kəmərlər aşkar edilməsə də, orta əsrlərə aid kəmərlər çoxdur.

Qədim geyimlərimiz orta əsrlərdə sürətlə inkişaf etmişdir. Həmin dövrlərdə Naxçıvan geyimlərinin zəngin, keyfiyyətli, al-əlvan görünməsinə ipəkçilik, toxuculuq, dabbaqlıq, zərgərlik və sair xalq sənəti sahələrinin inkişafı da təsir etmişdir. Orta əsrlərdə Naxçıvanda dəvəçiliyin, qoyunçuluğun və pambıqçılığın geniş yayılması toxuculuğun inkişafına zəmin yaratmışdır. Belə ki, XVII-XVIII əsrlərdə Naxçıvan Azərbaycanın mühüm toxuculuq mərkəzlərindən biri idi. Qədim diyarın mahir toxucu sənətkarlarının hazırladığı gözəl və yüksəkkeyfiyyətli pambıq və çit parçalara böyük tələbat var idi. Naxçıvanda ən qədim parça nümunəsi Xaraba Gilan sərdabəsindən tapılmış və tarixi orta əsrlərə aid edilmişdir. Azərbaycan xalq geyimlərində olduğu kimi, Naxçıvanın milli geyimlərində də istifadə olunan parçalar rəngli olmuşdur. Parçaların boyanmasında bitkilərdən və bəzi böcəklərdən istifadə edilmişdir. Boya istehsalı üçün ən çox alma, nar, cəviz, soğan qabığı, ərik və tut ağaclarının kökündən istifadə olunmuşdur. Qırmızı rəng verən koşenil qurdundan da boya hazırlanmışdır.

XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda milli-mədəni irsimizin qorunmasına xüsusi diqqət və qayğı göstərilmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra da bu sahə qayğı ilə əhatə olunmuşdur. Muxtar respublikamızda da milli və mənəvi irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov milli dəyərlərimizin qorunmasına diqqət və qayğının artırılması üçün "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncam imzalamışdır. 2012-ci il isə Naxçıvanda "Milli dəyərlər ili" elan olunmuşdur. Bu gün Naxçıvanın milli geyimlərindən ibarət zəngin kolleksiya Naxçıvan Dövlət Tarix Muzeyinin etnoqrafiya fondunda toplanmışdır. Muzeyin kolleksiyasına XIX-XX əsrlərə, müxtəlif tarixi-etnoqrafik zonalara aid olan qadın və kişi geyimlərinin dəstləri və ayrı-ayrı elementləri daxil edilmişdir.

Naxçıvanda milli qadın geyimlərinin əsasını çəpkən (nimtənə), köynək, tuman, müvafiq baş örtüyündən ibarət olan dəst təşkil edir. Naxçıvan geyimlərinin biçimi sadə olub qolu düz biçilirdi. Köynəklə tumanın biçimi və tikiş texnologiyası başqa zonalarda olduğu kimi idi. Təkcə arxalıq öz forması ilə nisbətən fərqlənirdi. Belə geyimlərin ətəyində gümüşü və muncuqlu tikmə texnikasına üstünlük verilmişdir. Muncuqlu tikmə texnikasından istifadə edilərkən, əsasən, nəbati naxışlar işlədilirdi. Naxçıvanın qədim qadın geyimlərində, adətən, innabı, yaşıl, gümüşü rənglərə üstünlük verilmişdir. XIX əsrin əvvəllərinə aid mənbələrə əsaslanan etnoqraflar Naxçıvanda əhalinin geyiminin fəsillərə uyğun olaraq hazırlandığını qeyd etmişlər. XIX əsr Naxçıvanında milli geyimlərdə əsaslı dəyişiklik hiss olunmamış, orta əsrlərdə yaranmış geyim mədəniyyəti davam etmişdir.

Naxçıvanın milli geyimləri arasında baş geyimləri Azərbaycanın bütün bölgələrində olduğu kimi xüsusilə diqqəti cəlb edir. Naxçıvanda da baş geyimləri qeyrət, ismət, namus, şərəf, ləyaqət, cəsarət rəmzi sayılır. Kəlağayı, çalma, nar-nazı, təsək, ləçək, örpək, çadra və sair rənginə, gözəlliyinə və rəngarəngliyinə görə seçilən qadın baş geyimləridir. Belə geyimlərin geniş yayılmış növlərindən biri ipək kəlağayı idi. Kəlağayıların örtülməsində yaş və sosial fərqlər mövcud idi. Kişilərin əsas baş geyimi adi və ya qaragül qoyunların xəzindən hazırlanan papaqlar olub. Onların müxtəlif formaları və yerli adları mövcud idi. Börk, molla papağı, araqçın, sarıq kişi baş geyimlərindən daha çox istifadə olunmuşdur.

Müasir geyimlərimizdə qədim milli geyimlərimizə məxsus elementlərdən istifadə zəngin milli mədəniyyətimizin yaşadılması və təbliği baxımından əhəmiyyətli sayıla bilər.

**Fizzə QULİYEVA**
***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri***

## "Oğuzlar" əsəri müzakirə olunub

***Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasına xidmət edən "Oxunması zəruri olan kitablar haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi muxtar respublikanın təhsil müəssisələrində diqqət mərkəzində saxlanılır.***

Şərur rayonunun Kürçülü kənd tam orta məktəbində Faruk Sumerin "Oğuzlar" əsərinin müzakirəsində məktəbin direktoru Zülfiyyə Məmmədova adıçəkilən sərəncamın mahiyyəti barədə məlumat verib. Bildirilib ki, mütaliə insanın daxili aləminin zənginləşdirilməsində, dünyagörüşünün düzgün formalaşdırılmasında, nitq qabiliyyətinin inkişaf etdirilməsində mühüm əhəmiyyət daşımaqla yanaşı, həm də müsbət insani və iradi keyfiyyətlərin yaradılmasında böyük rol oynayır. Bu baxımdan oxunması zəruri olan kitablar haqqında imzalanan sərəncam zamanında atılmış addımdır. Bu dövlət sənədinin imzalanması gənclərdə mütaliəyə olan marağın artmasına, onlarda bədii zövqün formalaşmasına mühüm təsir edəcək.

Məktəbin sinifdənxaric və məktəbdənkənar işlər üzrə təşkilatçısı Dürdanə Orucova Faruk Sumerin "Oğuzlar" əsərinin mövzusu və ideyası, ədəbi-bədii məziyyətləri barədə danışıb. Qeyd olunub ki, bugünkü gəncliyin sağlam ruhda tərbiyə edilməsində oxunması zəruri olan kitablar sırasında "Oğuzlar" əsərinin yer alması təbiidir. Bütün dövrlər üçün aktual olan belə əsərlər öz bədii mükəmməlliyi, aşıladığı fikirlər baxımından müsbət dəyərlərə malikdir.

Kitabın müzakirəsində məktəbin müəllimləri Könül Hacıyeva, Orxan Həsənzadə və yuxarı sinif şagirdləri çıxış ediblər.

Sonda əsərdən parçalar qiraət olunub.

**Xəbərlər şöbəsi**

## Gənclər üçün film nümayiş etdirilib

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə gənclərin vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə vətənpərvərlik mövzusunda olan və aprel döyüşlərindən bəhs edən "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir" adlı sənədli film nümayiş etdirilib.

Filmə, ümumilikdə, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları da daxil olmaqla, 410 nəfər gənc baxıb.

*İdman xəbərləri*

## Boks birinciliyində qaliblər müəyyənləşib

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmələr arasında boks üzrə keçirilən Naxçıvan şəhər birinciliyinə yekun vurulub.*

İki gün davam edən birincilik Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilib. 11 çəki dərəcəsində 50-yə yaxın dəri əlcək sahibinin öz qüvvəsini sınadığı birinciliyin yekununa əsasən Ayxan Heydərov, Azad Həsənov, Hüseyn Məmmədov, Fəxrəddin Əliyev, Hüseyn Hüseynov, Nizami Novruzov, Orxan Süleymanov, Ayxan Süleymanov, Hidayət Məmmədov, Yusif Əliyev və Hüseyn Əhmədli müvafiq olaraq 33, 34, 38, 40, 42, 50, 52, 54, 57, 60 və 64 kiloqram çəki dərəcələrində I yerə layiq görülüblər.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

## AMEA Naxçıvan Bölməsi elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında ştatda boş olan şöbə müdiri, aparıcı və böyük elmi işçi vəzifəsini tutmaq üçün müsabiqə elan edir

***Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu***

Qədim və orta əsrlər tarixi şöbəsi. Şöbə müdiri – 1 yer; böyük elmi işçi – 1 yer

Yeni və ən yeni tarix şöbəsi. Aparıcı elmi işçi – 1 yer; böyük elmi işçi – 1 yer

***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***

Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsi. Şöbə müdiri – 1 yer

Musiqi və teatr şöbəsi. Şöbə müdiri – 1 yer; böyük elmi işçi – 1 yer

Dilçilik şöbəsi. Şöbə müdiri – 1 yer; böyük elmi işçi – 1 yer

Folklorşünaslıq şöbəsi. Şöbə müdiri – 1 yer

Ədəbiyyatşünaslıq şöbəsi. Şöbə müdiri – 1 yer; böyük elmi işçi – 1 yer

***Təbii Ehtiyatlar İnstitutu***

Coğrafiya şöbəsi. Şöbə müdiri – 1 yer

Fiziki tədqiqatlar şöbəsi. Böyük elmi işçi – 1 yer

İqtisadiyyat şöbəsi. Böyük elmi işçi – 1 yer

***Bioresurslar İnstitutu***

Bitki sistematikası şöbəsi. Aparıcı elmi işçi – 1 yer; böyük elmi işçi – 2 yer

Meyvə, tərəvəz və üzümçülük laboratoriyası. Böyük elmi işçi – 1 yer

Nəbatat şöbəsi. Böyük elmi işçi – 1 yer

Biokimyəvi tədqiqatlar laboratoriyası. Böyük elmi işçi – 1 yer

Zooloji tədqiqatlar laboratoriyası. Böyük elmi işçi – 1 yer

***Əlyazmalar Fondu***

Əlyazmaların toplanması şöbəsi. Şöbə müdiri – 1 yer

Əlyazmaların kataloqlaşması, tədqiqi və nəşri şöbəsi. Şöbə müdiri – 1 yer

Müsabiqədə yerlərə uyğun olan elmlər doktorları və fəlsəfə doktorları iştirak edə bilərlər. Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

*Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76,*
*AMEA Naxçıvan Bölməsi Təhsil və kadrlar şöbəsi.*
*Telefonlar: 544-65-97; 545-16-80*

## Yoldaşlıq görüşündə "Naxçıvan" komandası qalib gəlib



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında "Naxçıvan" və "Culfa" komandaları arasında voleybol üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev çıxış edərək komandalara uğurlar arzulayıblar. Hər iki qurumun birgə təşkil etdiyi görüş 3:0 hesabı ilə "Naxçıvan" komandasının qələbəsi ilə yekunlaşıb.

Sonda hər iki komandaya Voleybol Federasiyasının hədiyyələri, şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mübirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 772